Risale-i Nur şagirdlərinin cənnətlik olma məsələsi üzərinə

Risale-i Nur şagirdlərinin cənnətlik olma məsələsi üzərinə

“Resaili’n-Nur şakirdleri, iman ile kabre girecekler, imansız vefat etmezler.”[1]

.....

Şərhi:

• **Əvvəla:** Ustad Said Nursi (rahmətullahi aleyh)’in bu cümləsi, mütləq deyildir. ***“Risale-i Nur şakirdleri”*** qeydi ilə məhduddur. Risale-i Nur şagirdi isə, Ustadın öz təsbiti ilə, ***“fərzləri işləyən, kəbairi [böyük günahları] tərk edən, sünnətin hər növünə tərəfdar olan, bidətlərə tərəfdar olmayan”*** kimsədir. Ustad Nursi (rahmətullahi aleyh), bu xüsusda belə buyurmaqdadır:

“Dostun hassası [xüsusiyyəti] ve şartı budur ki:

Kat’iyen Sözlere ve envâr-ı Kur’âniyeye [Quranın nurlu həqiqətlərinə] dair olan hizmetimize ciddî taraftar olsun; ve haksızlığa ve bid’alara ve dalâlete kalben taraftar olmasın; kendine de istifadeye çalışsın.

Kardeşin hassası [xüsusiyyəti] ve şartı şudur ki:

Hakikî olarak Sözlerin neşrine ciddî çalışmakla beraber, beş farz namazını edâ etmek, yedi kebâiri işlememektir.

Talebeliğin hassası [xüsusiyyəti] ve şartı şudur ki:

---

1 (Şualar, s. 622)

Sözleri kendi malı ve telifi [yazısı] gibi hissedip sahip çıksın ve en mühim vazife-i hayatiyesini [həyat vəzifəsini], onun neşir ve hizmeti bilsin."[1]

"Kebâir [böyük günahlar] çoktur; fakat ekberü'l-kebâir [ən böyük günahlar] ve mûbikat-ı seb'a [həlaka götürən 7 böyük günah] tâbir edilen günahlar yedidir:

Katl, zina, şarap, ukuk-u vâlideyn [ata-anaya asi olmaq] (yani kat-ı sıla-i rahim), kumar, yalancı şehadetlik, dine zarar verecek bid'alara taraftarolmaktır."[2]

Ustadın 7 böyük günahdan biri olaraq zikr etdiyi *"dine zarar verecek bidalara tarafdar olmak"* maddəsini, İslam alimləri, *"kafir və dəlalətdə olanlarla mənən cihad etməkdən çəkinib onlara tərəfdar olmaq"* tərzində ifadə etmişlərdir. Demək, bidətlərə tərəfdar olan, Risale-i Nur şagirdi deyildir.

Ustad Said Nursi (rahmətullahi aleyh), əsərlərində *"bidət"* məfhumunu belə açıqlamışdır:

"Kavaid-i Şeriat-ı Garrâ [parlaq və nurlu olan İslam şəriətinin qanun-qaydaları] ve desâtir-i Sünnet-i Seniyye [sünnətlə bağlı prinsiplər], tamam ve kemâlini bulduktan sonra, yeni icadlarla o düsturları beğenmemek veyahut —hâşâ ve kellâ— nâkıs görmek hissini veren bid'aları icad etmek dalâlettir, ateştir.

Sünnet-i Seniyyenin merâtibi [mərtəbələri] var. Bir kısmı vâciptir, terk edilmez. O kısım, Şeriat-ı Garrâda [parlaq və nurlu olan İslam şəriətində] tafsilâtıyla beyan edilmiş. Onlar muhkemattır, hiçbir cihette tebeddül etmez. Bir kısmı da nevâfil [nafilələr] nev'indendir. Nevâfil [nafilələr] kısmı da iki kısımdır:

---

1 (Məktubat, 26-cı Məktub, 4-cü Məbhas, 10-cu Məsələ, s. 329-330)

2 (Barla Lahikası, 259-cu Məktub, s. 295)

Bir kısmı, ibadete tâbi Sünnet-i Seniyye kısımlarıdır. Onlar dahi şeriat kitaplarında beyan edilmiş; onların tağyiri [dəyişdirilməsi], bid'attır. Diğer kısmı, 'âdâb' tabir ediliyor ki, Siyer-i Seniyye [Peyğəmbərə dair yazılan] kitaplarında zikredilmiş. Onlara muhalefete bid'a denilmez; fakat âdâb-ı Nebevîye [Nəbəvi ədəbə] bir nevi muhalefettir ve onların nurundan ve o hakikî edepten istifade etmemektir."[1]

"Ahkâm-ı ubudiyette [qulluğa dair hökmlərdə] yeni icadlar, bid'attır. Bid'atlar ise, اَلْيَوْمَ اَكْمَلْتُ لَكُمْ دِينَكُمْ */ 'Bu gün dininizi sizin üçün kamil etdim.'*[2] *sırrına münafi [zidd] olduğu için, merduttur [rəddolunandır]."*[3]

"Resul-i Ekrem Aleyhissalâtü Vesselâmın Sünnet-i Seniyyesinin menbaı üçtür: akvâli [qövlləri], ef'âli [felləri], ahvâlidir [halları].

Bu üç kısım dahi, üç kısımdır: ferâiz [fərzlər], nevâfil [nafilələr], âdât-ı hasenesidir [həsən, gözəl adətlər].

~ Farz ve vâcip kısmında ittibâa [tabe olmağa] mecburiyet var; terkinde azap ve ikab [cəzalandırma] vardır. Herkes ona ittibâa [tabe olmağa] mükelleftir.

~ Nevâfil [nafilələr] kısmında, emr-i istihbâbî [sevdirmək üçün verilən əmr; məhəbbətin gərəyi olaraq görülməsi lazım gələn iş] ile, yine ehl-i iman mükelleftir; fakat terkinde azap ve ikab [cəzalandırma] yoktur. Fiilinde ve ittibâında [tabe olmaqda] azîm [böyük] sevaplar var. Ve tağyir [dəyişdirilməsi] ve tebdili [dəyişdirilməsi], bid'a ve dalâlettir ve büyük hatadır.

---

1 (Ləmalar, 11-ci Ləma, 6-cı Nüqtə, s. 54)

2 (Maidə/3)

3 (Ləmalar, 11-ci Ləma, 9-cu Nüqtə, s. 57)

~ Âdât-ı seniyyesi [təriflənmiş nümunəvi adətləri] ve harekât-ı müstahsenesi [bəyənilən gözəl hərəkətləri] ise, hikmeten, maslahaten [fayda gərəyi olaraq], hayat-ı şahsiye ve nev'iye ve içtimaiye [şəxsi, növi və ictimai həyat] itibarıyla, onu taklit ve ittibâ etmek [tabe olmaq], gayet müstahsendir [gözəl görülən, bəyəniləndir]. Çünkü herbir hareket-i âdiyesinde [adi, normal hərəkətində], çok menfaat-i hayatiye [həyata mənfəəti olan şeylər] bulunduğu gibi, mütâbaat etmekle [tabe olmaqla], o âdâb ve âdetler, ibadet hükmüne geçer.»[1]

Xülasə:

Ustad Nursi'nin bu cümləsi, ***"Risale-i Nur şakirdleri"*** qeydi ilə məhduddur. Risale-i Nur şagirdi isə, Quranın şagirdidir, yəni, Quranın bütün əhkamını təsdiq və o əhkamın icra və tətbiqinə tərəfdar olan həqiqi mömindir. O halda, Ustadın vermiş olduğu bu müjdə, bu əsrdə, məzkur (yuxarıda zikr edilən) sifətləri özündə daşıyan Risale-i Nur şagirdləri üçündür.

• **İkincisi:** Ustadın, ***"Resaili'n-Nur şakirdleri, iman ile kabre girecekler, imansız vefat etmezler."*** kimi cümlələri, ***"qəziyye-i mümkinə"***-dir. Yəni, *"Risale-i Nurda, belə bir xüsusiyyət var. Çalış o müjdəyə layiq ol!"* deməkdir. Yoxsa, əsla və əsla, Ustad Nursi, hər Risale-i Nur oxuyan şəxsi, cənnətlə müjdələmiş deyildir.

• **Üçüncüsü:** Bu məsələ, başda Quran və Nəbəvi hədislər olmaq üzərə, bütün İslam alimlərinin əsərlərində yer alan etiqadi bir məsələdir. Yəni, hər kim iman edib saleh əməl işləyərsə, mütləq cənnətə girər. Necə ki, şanı uca olan Quran, iman edib saleh əməl işləyənləri belə müjdələməkdədir:

وَبَشِّرِ ٱلَّذِينَ ءَامَنُواْ وَعَمِلُواْ ٱلصَّٰلِحَٰتِ أَنَّ لَهُمْ جَنَّٰتٍ تَجْرِى مِن تَحْتِهَا ٱلْأَنْهَٰرُ

1 (Ləmalar, 11-ci Ləma, 11-ci Nüqtə, s. 60)

"İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, onlar üçün ağacları altından çaylar axan Cənnət bağları vardır."[1]

Demək, iman edib saleh əməl işləyən hər kəs, cənnətə girəcəkdir. Ancaq ya hesabsız və cəzasız cənnətə girər; ya da cəzasını çəkdikdən sonra cənnətə girər. İmanından dolayı, cəhənnəmdə əbədi qalmaz.

• **Dördüncüsü:** Allah rəsulu (sallallahu aleyhi və səlləm), belə buyurmuşdur:

"Kim, lə iləhə illəllah, Muhammədur-Rasulullah deyərsə, cənnətə girər."

Bu və bənzəri hədislərin mənası budur ki: *"Lə iləhə illəllah, Muhammədur-Rasulullah" deyən bir kəs, cəhənnəmdə əbədi qalmaz.* Əgər günahlarının cəzası varsa, cəhənnəmdə bu cəzasını çəkdikdən sonra cənnətə gedər; imanından dolayı cəhənnəmdə qalmaz, deməkdir.

Eynilə bunun kimi, Ustadın, ***"Risale-i Nur şakirdleri, iman ile kabre girerler, imansız vefat etmezler."*** kimi müjdələri, yuxarıdakı hədisin mənasını daşımaqdadır. Yəni, fərzləri işləyən, kəbairi tərk edən, sünnətin hər növünə tərəfdar olan, bidətlərə tərəfdar olmayan Risale-i Nur şagirdləri, cəhənnəmdə əbədi qalmazlar. Əgər cəzaları varsa, cəhənnəmdə o cəzalarını çəkərlər, daha sonra cənnətə girərlər, deməkdir.

Demək, bu cümlə, məzkur hədisin mənasını daşıyır və Risale-i Nur şagirdlərinə xas bir müjdə deyildir. Hər mürşid və alim, iman edib saleh əməl işləyən və təqva dairəsində hərəkət edən müridlərinə və tələbələrinə, bu müjdəni vermişdirlər. O halda, bu müjdə, ümumi bir qanun olub müstəqim olmaq şərtilə hər məsləkə və məşrəb sahiblərinin mürid və tələbələrinə verdiyi bir müjdədir.

Peyğəmbərimiz (sallallahu aleyhi və səlləm)'dən bu günə qədər gələn böyük alimlər və mürşidlər, *«Kim lə iləhə illəllah,*

1 (Bəqərə/25)

Muhammədur-Rasulullah deyərsə, cənnətə girər.» müjdəsini vermişlərdir. Çünki onların hər biri, öz zamanlarında, Allah rəsulu (sallallahu aleyhi və səlləm)'i təmsil edir; həqiqi mənada dinin xidmətini aparırdılar. Əlbəttə ki, bu mücadələ və dini mücahidə nöqtəsində, Quran və hədisin dililə müjdələnmələri, hal və məqamın gərəyinə uyğundur və haqqın məhz özüdür. Bax bu müjdənin bu əsrdəki bir fərdi də, Risale-i Nur tələbələridir.

Ustad da, tələbələrinə mənən belə deməkdədir:

*«Sizlər, Risale-i Nur vasitəsilə imanınızı təqliddən təhqiqə çevirmək, sünnətə ittiba etmək, İlahi əhkamın tətbiq və icrasına tərəfdar olmaq və bidətlərə tərəfdar olmamaqla, 'dost, qardaş və tələbə' siniflərindən hansı birinə girsəniz, əbədi cəhənn*əmdə qalmazsınız, -cəzasız və ya cəzalı- cənnətə girəcəksiniz. *Cəza çəkmədən cənnətə girmək üçün huququllaha (Allahın haqlarına) və huququ'l-ibada (qulların haqlarına) tam riayət etməyiniz lazımdır. Çünki Allahın və qulların haqlarına tam riayət etməyənlər və şərləri xeyrlərindən daha çox olan kimsələr, cəzas*ını görər və nəticədə cənnətə girər.»

Allahın haqları, tövbə ilə silinir; qulların haqları isə, cəzalandırılmağı gərəkdirir. Əhl-i sünnətin bu mövzudakı etiqadı budur. Ustad Said Nursi (rahmətullahi aleyh)'in məzkur cümlələrinin mənası da, bu ölçülər daxilində başa düşülməlidir. Yoxsa, Ustad, məzkur cümlələrilə, *«Sizlər, cənnət əhlisiniz, qurtuldunuz; qəbrdə və haşrda sizə sual və cəza yoxdur. İstədiyiniz kimi hərəkət edin!»* demək istəmir. Əgər bu mənada olmazsa, yəni Risalə oxuyan hər kəs qeydsiz-şərtsiz cənnətə girərsə, o vaxt, ümid və qorxu müvazinəsi pozular. Halbuki, din, ümid və qorxu müvazinəsini əmr edir. O halda, dinin bu əmrinə tabe olaraq, ümid və qorxu arasında olmaq və məzkur cümlələri də, bu mənada başa düşmək, lazım və əlzəmdir.

Demək, cənnət əhli, ümid və qorxu müvazinəsini özlərinə şüar edən kimsələrdir. Necə ki, Quranda, bu həqiqət belə ifadə edilməkdədir:

تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ ٱلْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا
وَمِمَّا رَزَقْنَـٰهُمْ يُنفِقُونَ ۞ فَلَا تَعْلَمُ نَفْسٌ مَّآ أُخْفِىَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ
جَزَآءًۢ بِمَا كَانُوا۟ يَعْمَلُونَ

«Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər. Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir.» [1]

Yenə bu mənada, Haqq Taala, belə buyurmaqdadır:

...وَيَرْجُونَ رَحْمَتَهُۥ وَيَخَافُونَ عَذَابَهُۥ...

«(Onlar), Onun rəhmətini umurlar, əzabından qorxurlar.»[2]

Ey müddəi! Peyğəmbər (sallallahu aleyhi və səlləm)'i görüb səhabə ünvanını aldığı halda, sonradan minlərlə insan mürtəd olmadımı? Elə bir dövrdə səhabə mürtəd olmuşdursa, minlərlə yalnış və batil etiqadların rəvacda olduğu axır zamanın ən dəhşətli dövründə yaşayan Risale-i Nur tələbələri, necə özlərindən əmin ola bilərlər?! Bu müvazinəni, sənin tənqidçi nəzərinə ərz edirik.

---

1 (Səcdə/16-17)

2 (İsra/57)